# SEVGİNİN AĞRILI YOLLARI

## *yaxud Əli Rza Xələflinin "Yaddaş Yanğısı" poeması haqqında düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

V HİSSƏ

**İnsan taleyi çox ziddiyyətli, təzadlı, ağrılı-acılı ola bilər; amma eyni zamanda bu ağrı, acıların, bu ziddiyyətlərin içərisində həm də həyatın şirinliklərini və acılarını daşıya bilər. Beləliklə, biz hər hansı bir bədii əsəri oxuyanda onun məğzində dayanan mətləbi, mahiyyəti qavramağa çalışırıq. Burada söhbət nədən gedir? Ümumiyyətlə, oxuduğumuz əsər həyatla nə dərəcədə səsləşir? Yaxud, əsərin əsas obrazları hansı hisslərlə, hansı duyğularla yaşayır? Əlbəttə, qoyulan suallar ritorikdir. Amma ritorik olmayan bir həyat sualı da var. Bu da ondan ibarətdir ki, insan yaşadığı ömürdə hansı hissləri, duyğuları heç vaxt unutmur, heç vaxt yaddan çıxarmır?**

Zənnimcə, insanın həyatında xüsusi yeri, əhəmiyyəti olan hadisələr heç vaxt unudulmur. Belə hadisələr bu və ya digər dərəcədə insanın taleyində müəyyən əhəmiyyət kəsb edir. İnsanın həyatı üçün bu və ya digər dərəcədə təsirli mahiyyət daşıyır. Bəs müasirimiz olan bir sənətkarın əsərini oxuyuruqsa və buradan müəyyən təəssüratlar əxz ediriksə, onda həmin sənətkarın məramı, cəmiyyətə mesajları haqqında hansı fikirləri deyə bilərik? Gərək bu suallara dəqiq və aydın cavab verək.

Ə.R.Xələflinin "Yaddaş yanğısı" poeması haqqında biz kifayət qədər fikir söyləmişik. Amma yarı-ayrı yaradıcılıq məhsullarının əsas məğzini təşkil edən sevgi notları haqqında bizdən əvvəlki şərhçilər, tənqidçilər, bir sözlə, söz-sənət adamları müəyyən fikir deməyə çalışıblarsa, biz də bundan geri qala bilmərik.

"Yaddaş yanğısı" əsərində sevgi motivləri nə dərəcədə əks oluna bilir? Ümumiyyətlə, müəllif bu əsərdə sevgi motivlərini qələmə almaya bilərdimi?

Bəri başdan cavab vermək lazımdır ki, sevgi xüsusi həyat iksiridir. Bunsuz müəllif keçinə bilməzdi. Amma bu sevgi motivinin hansı tərzdə, hansı məzmunda qələmə alınması... bu artıq mövzu məsələsidir.

Qarabağ işğal olunub. Yer-yurd talan edilib. İnsanlar bütün ölkə boyu didərgindir. Azərbaycanın ən müxtəlif künc-bucağında belə Qarabağdan didərgin düşmüş insanların məskunlaşdığını görmək olar. Axı insanlar bir yerdə olanda, bir məkanda olanda bir-birinə kifayət qədər bağlı olurlar. Bir-birinin xeyrində, şərində iştirak edirlər. Ən başlıcası, bir-birinə həyan olmaq imkanları olur. Amma çox təəssüf ki, Qarabağın işğalı zamanı əhalinin pərən-pərən düşməsi nəticəsində adamlar çox ağrılı dərəcədə bir-birindən uzaq düşdülər.

Şübhəsiz, hər bir müharibənin mahiyyətinə uyğun olaraq, əhdlər, peymanlar da pozuldu, ailələr dağıldı. Sevgilər nakamlıqla tale daşlarına çırpıldı. Bütün bunların hamısı son nəticədə ora gətirib çıxardı ki, müharibə insanlıq əleyhinə cinayətdir. Yəni müharibə elə bir şərait yaradır ki, bir-birilə əhd-peyman bağlayan insanlar heç özləri də hiss etmədən bu əhd-peymanların üstündən keçib gedirlər.

Maraqlıdır ki, "Yaddaş yanğısı" poemasında ayrı-ayrı hissələrdə, o cümlədən poemanın əvvəlinci hissəsində - "Baxtıma kitab açdım" bölümündə müəllif müqəddəs sevgi notlarına da ilk baxışdan ötəri təsir bağışlayan duyğulanmalarını da əks etdirən motivlər gətirib.

Söz o yerə gəlir ki, müəllif çox böyük ağrı və hüzn içərisində dağıdılmış, viran edilmiş kəndinin bütöv mənzərəsini seyr edərək, özü də daxilinə axan göz yaşları ilə seyr edərək, nəhayət, öz məhəlləsinə gəlib çatır. Doğrudur, heç də onun özünün doğulub-böyüdüyü məhəllə digərlərindən o qədər də fərqlənmir. Axı kəndin yuxarısından tutmuş, taa aşağısına qədər - ayrı-ayrı məhəllələrin təsvirindən gördük ki, salamat qalan heç nə yoxdur. Vandallar insan əməyinin bəhrəsi olan nə varsa, hamısını məhv edib, dağıdıblar. Evlər yoxdur, evlərin yerində cəngəllik yaranıb. Sual olunur; əgər vandallar bu torpaqları işğal edərək özününküləşdirmək istəyirdilərsə, onda niyə bu dərəcədə dağıntıya yol veriblər, insan əməyinin bəhrəsinin hamısının izini itirməyə çalışıblar? Bir sözlə, demək istəyirəm ki, qəddarlıq, düşmənçilik insanın yurduna, vətəninə bağlılıq hisslərini mənəvi mühitindən söküb çıxara bilməz. Nəinki, sevgi hisslərini.

Ə.Xələflinin "Yaddaş yanğısı" poemasında əsərin əsas qəhrəmanının yerinə, yurduna sevgisi tükənməz bir ilhamla təsvir olunur. Özü də hiss edirik ki, əsərin lirik qəhrəmanı, əsas obrazı yaddaşa doğru gedir. Onu ilkinliyə çağıran əsas not bundan ibarətdir ki, o, doğulub-böyüdüyü yerə can atır. Sanki burada qoyub gəldiyi xatirələri canlı olaraq görəcək. Bu xatirələr nədən ibarətdir, onu burada hansı sürprizlər gözləyir, onu burada hansı duyğular əhatə edəcək? O bütün varlığı ilə can atdığı məkanda qəlbinin rahatlığını tapacaqmı?

Bax burada sevgi notları haqqında danışmaq artıq yerinə düşür. Biz qəlbən, ruhən əsərin qəhrəmanının ən ali, ülvi hisslərlə yaşadığı məqamlara qovuşduğunun şahidi oluruq. Zaman-zaman insanlıq öz içində ən nadir keyfiyyətləri qoruyub saxlayır. Yəqin ki, bu nadir keyfiyyətlər sırasında öz sevgisinə sədaqət hissi daha üstün mahiyyət kəsb edir. Biz əsərin əsas qəhrəmanının yurd yanğısı ilə cn atdığı məqamda onun yanğılı bir dillə varlığından çağlayan səsini misralar arasından açıq-aydın eşidirik. O özünün ailə tarixçəsini, həyatının sevgi ilə çağlarında yaşadığı fərəhləri dilə gətirir:

Gəl, ay qonşu qızı, səninlə birgə,
Sevgimiz bu evdə çiçək açmışdı;
Gəl soruş, divarlar danışar bəlkə,
Deyər qismətimiz hara qaçmışdı.

Sənin bəzədiyin bu daş-divarlar,
Bizə sevinc payı, gülüş vermişdi;
Burda üzümüzə gülən arzular,
İstəklər təzə-tər güllər dərmişdi.

İki oğul, bir qız tale bəxşişi,
Bəxtimizə doğan ulduzlar idi;
Hər vaxtın özünün ayrı gərdişi,
Onda gecələr də gündüzlər idi.

Həqiqətən, belədir. İnsan həyatının sevgi ilə keçən anlarını sanki sehirli bir zaman kimi yaşamış olur. O bu zamanın necə keçib getdiyini, o bu zamanın necə ötdüyünü heç hiss etmir də. Şübhəsiz, əsərin lirik qəhrəmanı öz sevgilisi ilə yaşadığı birgə istək dövründə onlara fərəh bəxş etmiş övladlarını da xatırlayır. Ancaq necə qəribədir, o həmin məkana çatar-çatmaz öz sevgilisinin dını dilə gətirir. Elə bil ki, onu sonsuz bir duyğu ilə çağırır. Bu artıq təkcə sevgilisini çağırmaq deyil, bu həmin adla birgə həmin zamanı çağırmaqdır. Həmin dövrü çağırmaqdır. Həmin dövrün nə qədər uzaqda olub-olmadığının, həmin zamanın əl çatan, ün yetən olub-olmadığının fərqində deyil. O bütün varlığı ilə inanır ki, bu çağırış həmin sehrili keçmişi onun mənəviyyatına qaytaracaq. Aradan uzun müddət keçib. Təkcə elə işğal dövrü otuz ildən çoxdur. Söhbət onda deyil ki, insan öz ilkinliyinə yaş baxımından qayıtsın. Əsas odur ki, müəllif sanki belə bir hissi təlqin edir ki, əgər varlığınızda sevgi hissləri yaşayırsa, siz hələ kifayət qədər gənclik enerjisi daşıyırsınız, varlığınız daha yüksək ideallar uğrunda mübarizə aparmaq üçün sizə mənəvi güc, iqtidar bəxş edə bilər.

İnsafən, əsərin lirik qəhrəmanının duyğulanmaları bizi də həmin zamana aparır. Biz bir ucqar dağ kəndində iki gəncin necə böyük sevgi ilə ailə həyatını qurmasını, oğul-uşaq sahibi olmağını təsəvvürümüzdə canlandırırq. Hələ üstəlik onu da təsəvür etməyə çalışırıq ki, bu gənclər arasında ilk sevgi duyğuları, ilk görüşlər hansı hisslərlə müşayiət olunub. Elə yaxşı olar ki, müəllifin özünün yazdıqlarına əsaslanaq:

Hələ ilk görüşlər, ilk həyəcanlar,
Divarlar yön tutub, həyan olurdu;
Bir olub birləşən ürəklər, canlar,
Sevgi atəşində büryan olurdu.

Gecələr danışıb ulduzla, Ayla,
Səhərlər günəşlə bir oyanardıq;
"Bu dövran bizimdir" deyib dünyayla,
Qövsü-qüzeh üstə al boyanardıq.

Sevgilim, gəl oxşa bu divarları,
Burda gələcəyə qollar çəkərdik;
Sevgiyə dəyməzdi dünyanın varı,
Burda sevgimizlə dilək əkərdik.

Nə qədər yandırıcıdır?! Hələ lirikanın axıcılığını, yaxıcılığını demirik. İnsan hisslərinə bu dərəcədə yaxın olmaq, ilkinlik duyğularını bu qədər səmimiyyətlə ifadə etmək heç də asan məsələ deyil. Biz qəlbimizlə, ruhumuzla əsərin lirik qəhrəmanına qoşulmaq, həmin məqamları, həmin dövrləri öz düşüncəmizdə canlandırmaq istəyirik.

Qəribədir. İki gənc arasındakı ilk görüşün motivi necə olub, həmin görüşün şahidləri kimlərdir? Həmin görüşdə tərəflər hansı döyüntülərlə hisslərini bölüşüblər? Müəllif reallığa əsaslanır. Göstərir ki, yaşadıqları evin divarları əsas şahiddir. Məhz bu gənclərin mənəvi varlıqları bu divarlar arasında birləşib. Onların ürəkləri, canları məhz sevgi atəşində bu divarlar arasında yanıb.

Xəyali, romantik duyğular diqqəti cəlb edir. Müəllif göstərir ki, həmin gənclər sanki gecələr Ayla, ulduzlarla danışır. Üstəlik, onlar o qədər xoşbəxtdirlər ki, həyatı, nəinki həyatı elə dünyanı bütövlükdə özlərininki hesab edirlər.

Hər səhərin açılmağı, hər günəşin doğmağı, bu gənclərin varlığına ən ülvi duyğular, naxışlar bəxş edir.

İndi dövran öz qatarını çəkib gedib. Zaman kifayət qədər məsafə ayırıb. Amma əsərin lirik qəhrəmanı öz ilkinliyinə qayıtmaq inadından dönmür. O öz sevgilsini haralayır, çağırır ki, gəl bu divarları oxşa, öp. Onu özünün isti nəfəsinlə qızdır. Fəqət, həmin divarlar yoxdur. Həmin divarlar bir xarabalığın keşikçisidir. Bir sözləl, müəllifin təlqinindən belə başa düşürük ki, o dünyanın bütün varını sevgi hissinə bərabər tutmur, sevgini daha uca, daha qiymətli bilir.

Bütün hallarda insanlar qovğa ilə, qəza-qədərlə çarpışırlar. Biz dünyanın qucağına özünü atmış insanlar haqqında deyirik ki, o təkcə pencəyini götürüb evdən çıxıb. Doğru düşüncədir. Həyatla mübarizədən çəkinməyən hər hansı bir gəncin tale yolunda adi ola biləcək bir görüntüdür.

"Yaddaş yanğısı" poemasının qəhrəmanları da həyat qovğası içində qovrulurlar, çətinlikləri görürlər, ağrı-acılarla yaşamalı olurlar. Amma bütün bunlara baxmayaraq, onların sevgi dağlarını heç cür kədər aşa bilmir, qəm işğal edə bilmir. Onların mənəvi mühitində nikbinlik, həyat sevgisi qətiyyən özünü tərk etmir və bu motivləri biz əsərdə çox təsirli misralarla oxuyur və duyuruq:

Qovğalar içində çırpınsaq da biz,
Sevgi dağlarını kədər aşmazdı;
Bizə həyan idi xoş niyyətimiz,
Qəzəb qaynasa da, dolub-daşmazdı.

Burda sevgilərin çiçəkli yazı,
Burda məhəbbətin baharı vardı;
Burda bəxtimizə yazılan yazı,
Nə deyir, söz bilən göydə duyardı.

Bu xaraba yurdun dediklərini,
Səssizlik içində dinləyir qəlbim;
İndi acılıqla bu dərd vərini,
Gözlərim biçdikcə inləyir qəlbim.

Canlı təsvirlərdir. İlk məhəbbətin yaşantıları ömrün çox uca çağında, saçların ağ çiçək gətirmiş vaxtında bütün canlılığı ilə hiss olunur, görünür.

Davamı 11-ci səhifədə

Əvvəli 10-cu səhifədə

# SEVGİNİN AĞRILI YOLLARI

## *yaxud Əli Rza Xələflinin "Yaddaş Yanğısı" poeması haqqında düşüncələr*

Biz də məhz bu duğuları hiss etdiyimizdən həmin gənclərin yaşadığı dövrün xoş çalarlarını indiki həyatın real mənzərəsi ilə müqayisəyə çəkmək imkanımızdan kənara durmuruq.

Bütün hallarda ötmüş tale yolunun ağrılarını, faciəsini zaman özü danışır. Müəllifin təbirincə desək, xaraba yurdun özü söyləyir. Və bütün bunların hamısını biz səssizliklə dinləyən müəllifir yazısından duyuruq:

Baxıram xaraba yurd dənizinə,
Ruhum ağrı çəkir, dözüm dilənir;
Uçuq divarların boz bənizinə,
Baxan gözlərimin qanı çilənir.

Hanı o saraylar, xan evlər hanı,
Ruhlar da yığışıb, köçüb bu yerdən;
Hər tərəf başa-baş yağı talanı,
Qiyamət küləyi keçib bu yerdən.

Uçuq divarların yerində indi,
Kədər tüstülənir, qəmlər yanırdı;
Viranə qəlbimin şəhəri, kəndi,
Burda yaddaş-yaddaş alovlanırdı.

Bəs real mənzərə necədir? Elə əslində real mənzərə müəllifin yazdığı kimidir. Xarabalıqların, ağrı-acı məkanlarının hamısı bir canlılıq timsalındadır. Həmin uçuq divarların yerində olanları təsvir etmək və təsvirdən əvvəl təsəvvür etmək kimsəyə asan gəlməsin. Mənə elə gəlir ki, BMT-nin, digər beynəlxalq qurumların hər hansı bir səlahiyyət sahibini gətirib həmin xarabalıqlar qabağında saxlasaq və desək ki, soruş bu xarabalıqlardan, gör nələr deyir - yəqin ki, onlar çiyinlərini çəkərlər, deməyə söz tapmazlar, bəlkə də bizə təəccüb edərlər ki, görəsən bu admların ağlı yerindədir; axı uçuq divarlar necə danışa bilər? Amma "Yaddaş yanğısı" poemasının bütün mənzərəsi məhz bu həqiqəti diktə edir; bəli, müharibə vandallarının yaratdığı xarabalıqlar canlı olaraq danışa bilir, cinayətkarlar haqqında bütün dolğunluğu ilə məlumat verə bilir. Bizə bütövlükdə çatdırırlar ki, dünyada qeyri-insani düşüncə sahibi olan ikiayaqlı məxluqlar da olub.

Müəllif lirik qəhrəmanların düşüncələri ilə keçmişə qayıdır. Çox ağır duyğularla həmin dövrü xatırlayır. O vaxt ailə hələ birlikdə idi. Neçə qarda-bacı da bu evdə can deyib, can eşidirdi. Hər kəs səmimi, doğma duyğularla bir-birinə necə bağlandığının fərqində idi.

Beləliklə, biz sanki dünyanın axırına gəlib çatmış oluruq. İndi həmin qardaş-bacılar haradadır? Onlar bir-birindən nə qədər aralı düşüblər? Ümumiyyətlə, biri digərini yada sala bilirmi? Axı aradan otuz ildən çox vaxt keçib. Heç kim deyə bilməz ki, həyatın dəyəri haracan, hansı məsafəyə qədər ölçülür. Ümumiyyətlə, həyatın dəyərinin ölçü vahidi varmı?

Mən deyə bilmərəm ki, insanlar belə bir ölçü yaradıb, ya yox. Amma onu bilirəm ki, həyatın dəyəri insanın fərəhi ilə ölçülür. Nə vaxt ki, insan fərəh hiss edir, yaşamaq eşiqini yüksəldir - o vaxt həyat çox dəyərlidir:

Bir ata, bir ana ocağı sönüb,
Qardaşlar, bacılar xəyal qırağı;
Dolanıb zəmanə, dövran da dönüb,
Yenə yanacaqmı ümid çırağı?!

Yurdun öz dili var, danışa bilsə,
Hər övlad yurd ilə ünsiyyət qurar;
Zəhmətlər əkilsə, diləklər gülsə,
Çökmüş yurd yerləri ayağa durar.

Müəllifin burada bir maraqlı nüansa da diqqəti cəlb etməyi var. Onun düşüncəsinə görə bizim cansız hesab etdiyimiz yurdun öz dili var. İndi kim bu yurdla, bu dilsiz varlıqla nə dərəcədə danışa bilər, onunla necə ünsiyyət yarada bilər? Ümumiyyətlə, cansız hesab etdiyimiz varlıqlarla insan ünsiyyət yarada bilərmi, danışa bilərmi? Bəlkə də belə bir əlaqə real hesab olunmaz. Amma "Yaddaş yanğısı" poemasında biz belə bir əlaqənin canlılığını kifayət qədər hiss edirik, duyuruq. Ona görə də bütün varlığımızla müəllifi, onun yaşadığı hissləri duymağa çalışırıq. Qəlbimizlə onun ağrılarına şərik olmaq istəyirik. Onun yaşadığı mənəvi aləmə biz də varmaq istəyirik. Yəqin ki, həyatın mənalı olmağı elə insanın ona qeyri-adi görünən rənglərə can atmağı ilə ölçülür.

Müəllif nikbindir. O inanır ki, əgər yurda qayıtsalar, onda ilk gənclik zamanından varlıqlarını tərk etməmiş olan isti duyğular, hərarətli istəklər bu yurda can verər, onu təzədən dirildər.

Biz müəllifin nəzərləri ilə səssizliyə bürünmüş olan torpağa, yollara, dağlara baxırıq. Bir anlığa bizə elə gəlir ki, çətin olar bu ölü sükuta qərq olmuş ərazilərin dirilməyi. Amma müəllif nikbin duyğularla yaşayır. Onun lirik qəhrəmanı tam inamla deyir ki, isti bir nəfəs yurdun hər soyumuş parçasını qızdıra bilər. Bir sözlə, bu təbiət onun bağrına qayıtmış olan doğma nəfəslə təzədən oyanar. Biz bu təsvirləri bütün canlılığı ilə müəllifin duyğulanmalarında hiss edirik:

İsti nəfəsimiz yurda can verər,
Zəhmət məlhəm olar, yaraya, dərdə;
Şəhid oğulların ruhu gül dərər,
Dirilər torpaq da, oyanar yer də.

Yovşan qoxusuna qəlbim atlanar,
Ruhumla uçaram Gəyən çölündə;
Acı xatirələr yenə dadlanar,
Üzərəm istəyin vüsal gölündə.

Necə də gözəldir? Nikbinliyin həddinə baxın. Demək, yurd oyandıqca, doğma insanların isti nəfəsi gəldikcə doğma yerlər gül açacaq və şəhid oğulların ruhu da bu gülləri məmnunluqla dərəcək. Beləliklə, torpaq da, yer də oyanacaq, həyat təzədən qaynayacaq.

Əsas məqsəd nədir? Əsas məqsəd odur ki, insanı torpağa bağlayan, yerə-yurda çağıran duyğulanmaları sözə gətirə biləsən, başqa sözlə, oxucunun diqqətinə çatdırasan ki, sən məhz harada doğulmusan, kimsən, atan kimdir, anan kimdir? Əlbəttə, bu ritorik suallar da məşhurdur. Çingiz Aytmotovun motivlərindən irəli gəlir.

Həmişə elə düşünmüşəm ki, Ə.R.Xələflinin əsərləri bir yaddaş xəritəsidir. Onun yaradıcılığını ardıcıl və diqqətlə izləyəndə biz Qarabağın aydın mənzərəsini tam aydınlığı ilə təsəvvüür etmək imkanı qazanırıq. Bunun özü bir yazıçı, sənətkar uğurudur. Əsas ona görə əsrlər sonra oxucu indiki zamanın coğrafiyasını kifayət qədər aydınlığı ilə, yəni adları ilə, ünvanları ilə təsəvvür edə bilsin.

Müəllifin lirik qəhrəmanın düşüncələri ilə təqdim etdiyi Yuxarı Xələfli mənzərələrini görürük. Müəllifin tez-tez xatırladığı Xələf dağı, Gordu baba zirvəsinə qalxırıq. Oradan üzü aşağı, Araz boyu baxırıq və üfüq boyu Arazı, Diri dağlarını görürük:

Baxaram Diridən Araz boyunca,
Xudafərin üstə görüş çağım var;
Könlümün gözünə çəkəm doyunca,
Bir qardaş toyuna umacağım var.

Az deyil, yəni müəllif Xudafərin obrazını lirik mətnin içərisinə gətirməklə daha böük düşüncə məqamına yol açır. Yəni Qarabağ azad olunacaq, yəni Qarabağ indi azaddır. Amma axı Azərbaycan problemləri var. Bəs Xudafərinin həsrət körpüsü olmağı nə vaxt bitəcək. Bəs bizim Təbrizə qovuşmağımız, ulu Şəhriyar istəklərinə, niyyətlərinə yetməyimiz nə vaxta qalır - bütün bunlar hələ ki, bədii əsər qəhrəmanının istəkləridir, arzularıdır.

Əlbəttə, Qarabağın özü də işğaldan asanlıqla azad olunmayıb. Əvvəllər qeyd etdiyimiz kimi şəhidlərin qanı ilə, canı il biz bu torpaqlara qayıtmışıq. Elə bu yerdə biz əsərin lirik qəhrəmanının dilindən daha yeni motivlər eşidirik. O qeyd edir ki, oğlu, nəvələri doğma torpaq uğrunda savaşa qalxıb, Qarabağ uğrunda can fəda etməkdən çəkinməyiblər. Beləliklə, biz Qarbağın azad olunmasını bütövlükdə bir xalqın təkcə fiziki gücü ilə yox, həm də mənəci gücü ilə mümkün olduğuna inanırıq. Bir sözlə, müəllif çox böyük inamla doğma yerləri, ziyarət etmək qazandığı doğma yerlərdəki tarixi abidələri, pirləri, insanların sitayiş yeri olan ocaqları özünün Məkkəsi, Mədinəsi bilir. Və bunu da çox emosional poetik çalarla yazıya gətirir:

Oğlumun, nəvəmin döyüş yerləri,
Dinim imanımdır, könül varımdır;
Məkkəm, Mədinəmdir yurdun pirləri,
Yazdığım misralar dualarımdır.

Maraqlıdır ki, müəllif özünün ruhundan gələn misraları doğma yerlər, yurdlar üçün varlığında qopub gələn dualar kimi oxuyur. Onun ürək çırpıntıları, duyğulanmaları bütövlükdə könül yanğısı, qəlb atəşi ilə süslənir.

Bizə elə gəlir ki, işğaldan azad olunmu. yerlərin elegiyasını "Yaddaş yanğısı" əsəri qədər əks etdirən hər hansı bir bədii-poetik əsər hələ ki, yoxdur. Ona görə də bu əsərin hər bir epizodu üzərində yüksək hərarət və emosional duyğularla köklənərək fikir bildirməyə çalışdıq.

Müəllif özü də yaratdığı obrazın dili ilə təsadüfi olaraq demir ki, onun söz-söz, misra-misra çağlayan dilləri öz qəlbinin, varlığının odudur, atəşidir. Özü də təkcə öz qəlbinin, varlığının yox, ümumiyyətlə, yurd həsrəti çəkən hər kəsin bağrından qopub gələn hisslərin, duyğuların sözlə ifadəsidir "Yaddaş yanğısı".

Zənnimcə, Əli Rza Xələfli "Yaddaş yanğısı" əsərində tez-tez xatırlatdığı Xələfli obrazını iki mənada işlədib. Bir onun doğulub-böyüdüyü kəndin adı və onun sakinlərini ifadə etmək baxımından. Bir də özünün adı, təxəllüsü kimi.

Bütün hallarda müəllifin mövqeyi doğrudur. O özünü kəndin, camaatın özü kimi görür. Başqa sözlə, Qarabağın bir parçası kimi görür. Zənnimcə, fikrimizi təsdiq üçün elə bir bəndə də diqqət etmək bəs edərdi:

Ruhumun çağlayan alov dilləri,
Qəlbin atəşidir, odudur sözüm;
Xələfli həsrəti çəkən elləri,
Söz-söz salamlayar ocağım, közüm.

Nə qədər həssas, emosional duyğuların ifadəsidir bu bir bənd. Göründüyü kimi müəllif varlığından gələn hissləri, duyğuları sanki doğma yerlərin hər qarışını söz-söz salamlamaq hissi ilə yazıya gətirir. O bütün varlığı ilə inanır ki, həyatının ən qaynar, ən odlu çağlarını keçirdiyi bu kəndin hər qarışı uzun illərin həsrətindən sonra onunla danışmaq istəyindədir. Onun sual dolu baxışlarını buradakı hər bir qaya, hər bir cığır hiss edir.

Müəllifin lirik qəhrəmanın timsalında dilə gətirdiyi motivlər diktə edir ki, sevgi hissləri yalnız ruhi, mənəvi bağlılıq kimi bir obrazın timsalında qala bilməz. Həmin obrazın boy atdığı, böyüdüyü mühitin özü bütövlükdə sevgili obazıdır. Düşünürəm ki, Ə.R.Xələflinin "Yaddaş yanğısı" əsəri bu baxımdan çox uğurlu alınıb.

Deməк, insana nə lazımdır? Bu sualı yəqin ki, çoxları özünə verib. Ətrafına verib. Amma hansı cavabı alıb, bu barədə nə düşünüb, hansı qərara gəlib? Yəqin ki, həmin cavabların heç yekunu da yoxdur. Amma müəllif xüsusi bir ritorika ilə həmin suala cavab verib. Özü də çox dolğunluğu ilə, çox aydınlığı ilə cavab verib:

İnsana ömrünün ahıl çağında,
Bircə sirdaşı var, o da yurd yeri;
Əlçatmaz, ünyetməz həsrət dağında,
Gəzərsən sahilsiz xatirələri.

Beləliklə, müəllifin bütün varlığı ilə bircə sualda ifadə olunan məramının cavabını hiss edirik, görürük, duyuruq və oxuyuruq. Hər bir kəsin ömrünün ahıl çağında onun bircə sirdaşı var, o da yurd yeridir. Bu yurd yeri heç də onun bütün varlığı ilə bağlandığı gənclik sevdasından və sevgilisindən kənarda deyil. Həmin yurd yeri məhz bu məqamda lirik aşiqin, lirik qəhrəmanın sevgilisi ilə birləşmiş olur. Biz möhtəşəm bir obraz görürük.

Müəllif qeyri-adi notlarla əsərin bu hissəsini tamamlayır. Yaş keçib, ömür ötüb, sevgilisi də özü kimi ağ çiçəklər altındadır. Ömrün ahıl çağlarını yaşayırlar. Amma əsərin lirik qəhrəmanı həmin gəncliyi axtarır. Görək nə tapır:

...Solsa da qəlbimdə, yaşıl bağ, çəmən,
Ruhumda ulayan yaddaşı tapdım;
İtən gəncliyimi tapmasam da mən,
Qəlbimdə yurd yeri - sirdaşı tapdım.

Çox tutarlı, məntiqi yekundur. Bu duyğulanmalar insan hisslərinin hansı müqəddəsliyə qədər qalxmağı haqqında oxucuda kifayət qədər aydın təsəvvür yaradır. Biz sözün həqiqi mənasında Qarabağ faciəsinin bütün ağrısını hiss edirik, kədərini duyuruq və eyni zamanda nikbin duyğularla gələcəyə baxırıq. Haqqın əbədi məğlubiyyətini qəbul etmirik. İnanırıq ki, bütün hallarda savaşların sonu olaraq həqiqət qalib gələcək. Doğruluq təntənə himin oxuyacaq.

Əli Rza Xələflinin "Yaddaş yanğısı" əsəri böyük tarixi həqiqətlər haqqında çox səmimi insanilik nəğmələri kimi yadda qalır.

**12.12.2023**